İraq Türkmanları kimdir?

Elşən Mirişli

Gəncə şəhəri, tarixçi

III Yazı

Əl-Mevaliyəboyu.Mevaliyə türkman boyudur,əsasən Mosul quberniyasında, Tələfərdə və İraqın digər yerlərində yaşayırlar.Onlar sarliyə və şəbək boylarından yalnız dini məzhəblərinə görə seçilirlər.

Əş-Şəbək boyu.Hörmətli alim Əhməd Həmid Sərrafın yazdığına görə, bu boy İraqın şimalında məskən salıb. O, yazır: "Heç bir şübhə yoxdur ki,türklər İraqın şimalını Sultan Toğrul Əs-Səlcuqinin (1037-1063) zamanında fəth edib,özlərinə Mosul ətrafını yeni vətən seçiblər.Toğrul bəy saysız-hesabsız türklə İraqa səfər edərək xəlifə Biəmrulla Əl-Abbasinin köməyinə gəlmiş, Buveyhiyyə dövlətinin Sultanı və o dövlətin üsyankar başçılarından biri əl-Bəsəsirini məğlub etmişdir.Əş-Şəbək türkmanların bir hissəsidir. Mosul şəhərinin cənub-şərqində yerləşən kəndlərdə yaşayırlar.Ümumi sayları 10-15 mindir.

Əş-Şəbək adamları Mosulun şərqindəki kəndlərdə yaşayan digər türkmanlara nisbətən daha mülayim xasiyyətli olur.Onlar daha alicənab və ağıllı,öz işlərində hər şeyin yerini biləndirlər.Mosulun digər əhalisi kimi namazlarını ya ərəbcə,ya da gözəl türkman dilində qılırlar.Onlar əkinçiliklə məşğul olur,köçərilik aralarında indiyədək qalmaqdadır. Kənardan qız almazlar.Namus məsələsində həddən artıq möhkəmdirlər. Onların içərisində davranışı pis gənclər olmaz,haqqında şübhə və dedi-qodu gəzən qızlara da rast gəlinmir.Qanunu pozub ağır günah işlədənləri müqəddəs dini birliklərindən qovulma,hicrət,ümumi nifrət gözləyir. Şəbəklilər türkmanlar içərisində ən yaxşı əkinçidirlər,heç biri yalan ifadə verməz,başqalarına ziyan vurmaq üçün böhtan uydurmazlar.Onların psixologiyasında qızılbaş təriqətinin və Şeyx Səfiəddin Əl-Ərdəbilinin təliminin təsiri açıq-aydın duyulmaqdadır.Başqa xüsusiyyətlərə gəlincə (məsələn,kəramət,səxavət,qonaqsevərlik),onlar orta mövqedədirlər,öz qonşuları ərəblərə bu məsələdə bənzəmirlər.

Türkmanlar.Türkman boyları lap qədim zamanlardan bəri Kiçik Asiya, Azərbaycan, bu gün İran adlanan ərazidə və İraqda Dəclə-Fərat çaylarının şimal cəhətlərində yerləşmişdilər. Kiçik Asiyada Zülqədriyyə və Bani-Ramazan və sairə türkmanlara mənsub hökumətlər idi.Ulcaytu ibn Ərğun (Arqun) zamanında (1284-1291) Türküstandan hicrət edən iki Oğuz-türkman boyu Fərat və Dəclə çaylarının şimal cəhətlərində məskən saldılar.Bu boyların bayraqlarında birisində qara qoyun,digərində ağ qoyun rəsmi olduğundan bunlara Qaraqoyunlu və Ağqoyunlu deyilirdi.Elxanlılar Qaraqoyunluları Ərzincan-Sivas,Ağqoyunluları da Mosul və Aməd (Diyarbəkir) şəhərlərinin ətrafında yerləşdirdilər.O zaman burada kiçik-böyük hökumətlər mövcud idi.Lakin yeni gələn qüvvətli türkman boyları qarşısında mövqelərini mühafizə edə bilmədilər.Zamanla qüvvətlənib hüdudlarını genişləndirdilər. Qaraqoyunlular Azərbaycanı ələ keçirib ərazilərini genişləndirdilər. Təbriz şəhəri Qaraqoyunlu dövlətinin mərkəzi seçildi. Ağqoyunlular da İraqı zəbt ilə Bağdadı mərkəz seçdilər.

Qaraqoyunlu hökuməti. Qaraqoyunlu bir türkman boyunun adıdır. İraqda eyni adlı (ona bəzən baraniyə deyirlər) dövlət yaratmışdır.O,əslən köçəri olub, sonra vətəni qərbi Türküstandan gələrək Azərbaycan və Sivasda məskunlaşmış,Elxanlı dövləti dövründə isə İraqa köçüb gəlmişdir.Qaraqoyunluların saysız hesabsız qolları var,içərilərində ən məşhurları baharlu və bautdur.Boyun o dövrdəki başçısı Bayram Xoca Cəlairi Sultanı Üveyslə əlaqəyə girir və 1373-cü ildə,ona qoşulur.Sultan öz savaşlarında onun köməyinə arxalanır.Cəlairi Sultanı Üveysin vəfatından sonra Bayram Xoca Cəlairi səltənətini ələ keçirmək arzusuna düşür.Özünə qüvvə toplayıb uğur qazanır və Mosulu tutur.

Dörd aylıq mühasirədən sonra şəhər alınır,sonra Sinvar,Tələfər və Azərbaycanın bir sıra vilayətləri fəth olunur.

Tarixçilər onun Mosulu tutmağı ilə vəfatı arasındakı dövrü əmirlik müddəti sayırlar.Onu əmirlik taxtında qısa vaxtda da olsa qardaşı Murad Xavəcə əvəz edir. Onun ölümündən sonra əmirliyə Qara Məhəmməd ben Tormuş başçılıq edir,əmirliyin sərhədlərini genişləndirir.Hakim Mardan Əz-Zahirə qarşı savaşır.Cəlairi Sultanı Əhməd ben Üveysin qızı ilə evlənir.Sultan Əhməd bu qohumluqdan istifadə edərək Qara Məhəmmədə müharibələrdə yardım göstərir.Qara Məhəmməd öldürüldükdə yerinə oğlu Qara Yusif çıxır və əmir olur.

XV əsrin əvvəlində Qaraqoyunlular Qara Yusifin başçılığı ilə Azərbaycanı Teymurilərdən və İraqı Sultan Əhməd Cəlayirdən aldılar və bu sırada Şərqi Anadolu Türkmələrindən böyük kütlələr Azərbaycana gəlib yerləşdilər (1403).

Qaraqoyunlular Elxanlı dövləti zamanında Seyhun məntəqəsindən gəlib, Şərqi Anadoluda yerləşmişdilər və Əmir Teymur öləndən sonra Azərbaycanı alıb Təbrizi paytaxt seçdilər.Qara Yusifdən sonra onun oğlu Cahanşah hökuməti ələ alıb Sistana qədər irəlilədi.

Cahanşah türkcə və farsca şeir yazmış və şeirdə Həqiqi təxəllüsünü seçmişdir.

Təbrizdə Göy məscidi o tikdirmişdi.Özü isə Uzun Həsən ilə savaşda ölmüş və Göy məsciddə dəfn edilmişdir.

Beləliklə, Türkman boyu Qaraqoyunlu İraqda öz dövlətini yarada bilir. Hakimiyyətini 1469-cu ilədək davam edirir.Onlarla Cəlairi əmirləri və həmçinin Teymurləng qoşunları arasında bir neçə müharibə olub. İraqın sonuncu Qaraqoyunlu Sultanı Şeyx Mənsur ben Zeynal sayılır.

Alim-tarixçi Əl-Əzzavi yazır : " Qaraqoyunlu hakimiyyəti süqut etdikdən sonra həmin boy Hindistan ərazisinə mühacirət etdi və ondan cüzi bir hissə qaldı ki, onun vəziyyəti boyun əvvəlki gücünə heç uyğun gəlmirdi.Onlar uzaq kəndlərə çəkilib yaşayır,sakit,fəqir həyat keçirirdilər.Əksəriyyəti başqa türkman boyları ilə qarışıb müxtəlif yaşayış məntəqələrinə səpələnmişdi.Ya da daha qüvvətlilərə tabe olmuşdur.

Ağqoyunlu hökuməti. Ağqoyunlu türkman boylarındandır.Vətən Türküstanı şərqə hərəkət edən monqol-tatar qoşununun gəlişi ilə tərk edib əcdadı Bayandur ben Gün ben Oğuz sayılır.Bu boy köçdən sonra əvvəlcə Diyarbəkir şəhərində və vilayətində yerləşdilər.

Ağqoyunlu,əvvəlcə bir boy (tayfa) və onun qurduğu əmirliyi və sonra bir ulus və onun qurduğu bir imperatorluğun və dövlətin başında olan xanədanın adıdır.

Ağqoyunlu xanədanı özlərini Oğuz elinin Bayandur boyundan bilirlər.Ona görə də onlara Bayandurxan oğlanları və ya Bayanduriyyə də deyilmişdir.

Ağqoyunlu el və ya tayfasını təşkil edən boylar bunlardır:Purnək, Mosullu,Xoca Hacılu,Həmzə Haculu,Dabanlu,Əhmədlu, İzzəddin-Hacılu,Heydərlu,Əmirlu,Yutçu,Şeyxlu,Süleyman-Haculu,Çavundur, Dodurğa,Dögər,Qarqın,Əfşar və Begdili. Bu boylardan ən mühümü Purnək və Mosullu olmuşdur. Bunlar türkmanlar adı ilə də məşhur olmuşlar.

Bu boylar el halında Şərqi Anadoluda yerləşib,yayda Ərzincan-Ərzurum arasında,qışda isə Urfa, Mardin həvaləsində köçəri halında yaşayırdılar. Bu boylar monqol istilası və Elxanlı dövləti zamanında digər türkmanlarla bərabər Anadoluya gəlib, bu məntəqələrdə yerləşmişlər.1469-cu ildə İraq ərazisini ələ keçirən Uzun Həsən (1453-1478) Ağqoyunlu türkmanlarını İraqda yerləşdirərək Qaraqoyunlu Şah Mənsur ben Zeynalın hakimiyyətinə son qoydu.Bağdadın alınması ilə Ağqoyunlu imperatorluğu quruldu.

İmperatorluğun hüdudları qərbdə Sivas və şərqdə Nərmaşir şəhəri idi. Bundan sonra Uzun Həsən dünya padşahı olmağı və Misir –Osmanlı ölkələrini özünə tabe etməyi düşünürdü.Bunun üçün Avropa dövlətləri, xüsusən Venesiya dövləti ilə yaxından münasibət qurub top və tüfəng sifariş verdi.Uzun Həsən Qaraqoyunlu hökumətini aradan aparandan sonra,onların paytaxtı Təbriz şəhərini özünə paytaxt seçmiş və Anadoludakı və Azərbaycandakı Ağqoyunlu ulusuna (el,millət) bağlı olan boy (qəbilə) və oymaqların (tayfa) bəzilərini İraqa gətirmiş və burada onlara iqtalar vermişdir.Azərbaycan türkləri tarixləri ərzində türk və türkman adı ilə tanınmışdılar.

Uzun Həsən 1473-cü ildə fateh Sultan II Mehmedə Qarşı başladığı savaşda Tərcanda (Ərzincan yaxınlığında) məğlub olmuş və bu hadisədən çox kədərlənmişdi.1476-cı ildə dördüncü dəfə Gürcüstana hücum etmiş və 1478-ci ildə Təbrizdə vəfat etmişdir.

Uzun Həsən cəsur, bilikli və adil bir sultan idi.Tarixçilər və salnaməçilər ona "Sultan-i adil" ləqəbi vermişdilər.Ondan əvvəl kəndli və əkinçilərin vəziyyəti vergilərin artması ilə pisləşmişdi.O, bu vəziyyəti islah etmək üçün Uzun Həsən "Qanunnaməsi"ni və ya "Həsən padşah qanunları"nı çıxardı.Bu "Qanunnamə" yə görə vergi məhsulun altıda birinə və tamğa (ticarət mallarına qoyulan vergi) malın yüzdə beşinə düşürdü.Bu "Qanunnamə" Səfəvilər zamanında (1501-1736) da uzun müddət qüvvədə idi.Bütün ömrü mücadilə və savaşlarda keçən padşah,elmə çox əhəmiyyət verib alimləri himayə edirdi.Həftədə bir gün alimləri sarayına dəvət edər,onlar üçün mübahisə məclisi qurardı.Əbu Bəkr Tehrani Ağqoyunlu tarixi olan "Kitab-i Diyarbəkriyyə"nin çox qismini Uzun Həsənin ağzından eşidərək yazmışdır.

Uzun Həsən ana dilinə və elinə çox bağlı idi. O, özünü Oğuz xan və onun nəvəsi Bayandur xanın nəslindən bilib türk dilinə bağlılıq göstərmişdir.Ondakı dini etiqad da möhkəm olub,bu səbəbdən "Qurani- kərimi" türk dilinə tərcümə etdirmiş və onu hüzurunda oxudardı.Onun əqidəsinə görə müqəddəs kitabı türkcə oxumaq da bir ibadətdir və onunla da savab qazanılır.Ağqoyunlu hakimiyyəti İraqda 1508-ci ildə Şah İsmayıl Xətainin Bağdadı tutmasına qədər davam edib.

Səfəvilərin (Qızılbaş dövləti) hakimiyyəti. Qızılbaşlar 1508-ci ildə İraqı ələ keçirmişdilər.Səfəvilər Şeyx Səfiəddinin övladlarıdır.Bunlar yeni dövlət qurub,əlavi məzhəbini rəsmi məzhəb etmişdir.

Şeyx Səfiəddin 1251-ci ildə Elxanlı dövlətinin qüdrətli zamanında Ərdəbildə anadan olmuş və 1334-cü ildə 82 yaşında vəvat etmişdir.

Şeyx Səfiəddin 25 il şeyx Zahid Gilaninin şagirdi olduğu zaman onun qızı ilə evlənmiş və şeyx Zahid öləndən sonra təriqətin şeyxi olmuşdur.

Şeyx Səfiəddin ilə müasir olan məşhur Qəzvinli Həmdullah Mustoufi və İbn Bəzzazın yazdığı "Səffətus-səfa"da ("Əslən nüxsə) verdikləri məlumata görə şeyx Səfiəddin,oğlu Sədrəddin,nəvəsi Xacə Əli və nəticəsi şeyx İbrahim təriqət şeyxi olub,xalq arasında çox sevilib və hökumət yanında da nüfuz sahibi olmuşlar.

Şeyx İbrahimin oğlu Cüneyd atasının yerinə oturandan sonra, müridlərini silahlandırmış və özünə sultan ləqəbi verərək Azərbaycan və Anadoluda hakim hənəfi məzhəbinə qarşı əlavi məzhəbini yaymağa çalışmışdır.Qaraqoyunlu sultanı Cahanşah sultan Cüneydin qüdrətlənməsindən qorxuya düşüb ondan Ərdəbili tərk etməsini istəyir. Sultan Cüneyd Diyarbəkirə gedir,orada Ağqoyunlu əmiri Uzun Həsən tərəfindən qarşılanır və Uzun Həsənin bacısı Xədicə Sultan ilə evlənir.

Uzun Həsən Cahanşahı məğlub edib Təbrizi alandan sonra,Sultan Cüneyd yenidən Ərdəbil xanəgahına rəhbər təyin edilir.

Sultan Cüneyd 1460-cı ildə Gürcüstana və Şimali Qafqazada çərkəzlərə hücum edir,sonra Şirvanşah (Sultan Xəlilullah 1417-1465) ilə savaşır və bu savaşda ölür.

Sultan Cüneyddən sonra oğlu Heydər onun yerinə oturur.Sultan Cüneyd 1459-cu ildə Uzun Həsənin bacısı Xədicə Bəyim ilə evlənmişdir.Şeyx Heydər atasının ölümündən sonra dünyaya gəlmişdi.Şeyx Heydər dayısı Uzun Həsənin sarayında böyüdü və Uzun Həsənin yunan və xristian Bizans imperatorları sülaləsinə mənsub arvadı Dəspinə Xatundan (Teodora Meqale Kominin) doğulmuş qızı Aləmşah Bəyim (Marta) ilə evlənərək dayısının kürəkəni oldu.Türklərdə ərəblərə məxsus islam dininin qəbulundan sonra qohum evlilikləri geniş yayılmışdı.Sultan Heydər Ərdəbil xanəgahının rəhbəri seçiləndən bir müddət sonra Şimali Qafqaza atası kimi çərkəzlərlə müharibəyə gedir və onlardan 6 minə qədər gözəl qız əsir gətirir.Sonra Şirvanşah Fərrux Yasar (1465-1500) ilə savaşmağa məcbur olur.Fərrux Yasar kürəkəni Ağqoyunlu padşahı Sultan Yaqubdan (1478-1490) kömək istəyir və Sultan Yaqub da öz səltənətinə nicat vermək üçün Sultan Heydərə hücum edir.Sultan Heydər iki cəbhədə savaşmağa məcbur olaraq 9 iyul 1488-ci ildə Samurçay vadisində öldürülür.Sultan Yaquba Şey Heydərin kəsilmiş başı hərbi qənimət kimi göndərilir və Sultan Yaqub şeyxin başını bir neçə günlüyə tamaşaya qoyduqdan sonra anasına (Uzun Həsənin bacısı Xədicə Bəyimə) verməyi əmr edir.

(ardı var)